

Braziliyanın Rio de Janeyro şəhərində təşkil edilən Cüdo üzrə Dünya Çempionatında təkbətək döyüş zamanı gürcü idmançısı Varlam Liparteliani qeyri-adi üsula əl atıb.

Gərgin keçən mübarizədən sonra komanda yarışının finalında 90 kq çəkidə mübarizə aparan Liparteliani Rusiya idmançısı Kirill Denisovu ayağından dişləyib. Həmin epizod isə video-çarxda görüşün 4-cü dəqiqəsindı (3:41) baş verib. Rəqibinin bu cür taktikası Denisovu pərt etməsilə bərabər onun dueli uduzmasına da təsirsiz ötüşməyib.

Beynəlxalq qaydalara əsasən bu cür hal qayda pozuntusudur və hakimlər bunu nəzərə almalı idilər. Lakin bu görüşdən sonra komanda hesabının nəticəsinə görə, gürcülər dünya çempionluğunu fəth ediblər. Rusiya yığması isə 2-ci yerlə kifayətlənməli olub. Yarışdan sonra Denisov açıqlamasında bu cür hərəkətə görə, oyunçunun dərhal diskalfikasiya olunmasının lazım olduğunu dilə gətirib. “Hakimlərin qəbul etdiyi qərarın izah etmək mümkün deyil”.

Buna baxmayaraq Liparteliani qarşılaşmadan sonra etdiyi hərəkət üçün rəqibindən üzr istəyib.

{youtube}nOqPjsJgLoA{/youtube}